# FÜZULİ POEZİYASI, SƏTTAR DÜNYASI...



**ZİYADXAN ƏLİYEV**
*Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru*

Çox vaxt Səttar Bəhlulzadəni (1909-1974) şair təbiətli rəssam adlandırırlar. Lakin bunu təkcə ona görə demirlər ki, o, klassik Azərbaycan poeziyasının vurğunu, əsl xiridarı idi. Dilindən Füzulinin, Vaqifin, Sabirin, Seyid Əzim Şirvaninin misraları əskik olmazdı. Füzulinin məşhur "Məcnunla mənim dərdimin əfsanəsi birdir. Söz ayırsa da aşiqi-divanəsi birdir" beytini təkrar - təkrar söyləməkdən doymazdı. Elə dostları arasında da şairlər çoxdu. Poeziyadan söz düşəndə o, "Birinci yeri Füzuliyə, ikincini Vaqifə verirəm. Qalan yerləri özünüz bölüşdürün" deyib hökmünü verərdi...

Füzulinin Azərbaycan təsviri sənətində daha çox bədii münasibət bildirilən şairlərdən olması birmənalıdır. Rəssamlarımızın ən müxtəlif nəsilləri çox vaxt sirr qatına bələnmiş kimi görünən Füzuli dünyasına əsərlər həsr etsələr də, heç kim yaratdığının Səttar Bəhlulzadə ilə yanaşı qoymağa cəsarət etməzdi. Masa arxasında oturanda da yaranmış ən qısa fasilədə əli boş dayanmazdı. Çəkdikləri də ya Füzuli idi, ya da ki, Leyli və Məcnun...Müəllimlərindən eşitdiklərini də tez-tez mənə çatdırmaqdan usanmazdı. Həmişə də deyərdi ki, dünyanın heç bir şairi Leyli ilə Məcnunu qovuşdurmağa cəsarət etməyib. Bu da səbəbsiz olmayıb. Belə ki, Məcnun faciəsinin kökündə ilahi eşqin ünvanını səhv salması durub. Onun sevgilisinə qovuşmaması da ona verilən cəzadır. "Leyli və Məcnun" da nəsihətnamədir, ətrafdakılar belə sevməməyi tövsiyə edir...

Bu yerdə əlavə edək ki, dilindən Füzuli qəzəli əskik olmayan rəssamın böyük qəzəlxana ünvanlanan əsərlərində də, şamlar onun qəhrəmanlarının əlində qəmxara çevrilibdir. Onların işığında dərd danışdıran və sozalan çöhrələrdə aşiqlərin hələ də, səhvən nakamlıqlarının günahını haqqın tərsə yəhərləndiyi zamanda axtardıqlarını da görmək mümkündür. Ancaq sevgilərinə əvvəl-



**Zəncirlənmiş Məcnun**

cədən şaxta düşən, bəxtləri yatan, dərdləri ayıq olan, talelərinə hicran biçilən aşiqlər hələ də bəxtlərinin arxasının yerə çəkildiyinə inanmırlar...

Səttarın Füzuli ünvanlı əsərlərində insan dünya kədərilə qarşılaşır və ondan çəkinmədiyini, üzərinə çox ağır bir dərd yükü götürdüyünü nümayiş etdirir. Bu lövhələrdə şairin dərin fəlsəfi yüklə bələnmiş poetik misraları təsirliliyinə görə onlardan heç də geri qalmayan bədii görüntülərlə tamamlanıb desək, yanılmarıq. Səttarın sənətkar nüfuzunun duyulası dərinliyindəndir ki, o, şa-



**Nofəl**

irin iş dünyasında yaşayan və başqalarına görünməyən qatlarındakı kədərin ram edilməsi istəyini duya və təsvirə çevirə bilmişdir. Diqqətçəkən məqam rəssamın bir çox mənzərələrində olduğu kimi, Füzuli ünvanlı əsərlərində də kədər vasitəsilə ideal zəruriliyini, Tanrı tərəfindən qarğınan məhəbbətdən qaynaqlanan kədərin gözəlliyini başqalarına da kəşf etmək ehtiyacını duydu və ona yüksəldi. Odur ki, inamla Səttarın Füzuliyə və onun qəhrəmanlarına həsr etdiyi sayagəlməz əsərlərdə kədər ensiklopediyası yaratdığını söyləmək olar.

Bu əsərlərə baxdıqca sanki söz xiridarının və onun



**Füzuli və Məcnun Nofəl**

qəhrəmanlarının anbaan dəyişən ovqatını, keçirdikləri iztirabları diqqətlə izləyən bir tədqiqatçının nəfəsini duymaq mümkündür. Rəssamın yaradıcılığına xas olan – gerçəkliyin fəlsəfi bədii şərhinin işartıları, deməkolar ki, hər bir əsərdə mövcuddur. Füzuli yaradıcılığına bu cür baxış çox məntiqli olmaqla, həm də düşündürücü və duyğulandırıcıdır. Bu lövhələrdə rəssam fəlsəfəsi onun romantik dünyası və poetik fantaziyası ilə vəhdət təşkil etdiyindən əsərlər həm də poetik fikirlərin özü kimi ictimai-bəşəri mahiyyət daşıyır...

Rəssamın Füzuliyə həsr etdiyi qrafik əsərləri arasında şairin 60-70-ci illərdə yaradılan portretləri xüsusilə seçilir. Bu əsərlərdə Səttar Bəhlulzadə çox vaxt hamıya məlum olan və artıq meyara çevrilmiş ikonoqrafik əlamətlərdən uzaqlaşaraq öz xəyalında canlandırdığı və görmək istədiyi Füzulisini təqdim etmişdir. “Qəzəlxan” əsərində öz aləminə qapılmış şairi salxım söyüdlərdən hörülmüş çələng haşiyələndirir. Oyanan təbiətin “ağuşunda” təsvir edilmiş Füzulinin bu portretində Şərq poeziyasının bütün müdrikliyi cəmləşmişdir. Bahar fəsli və üzü gülməyən, düşüncələrinin məngənəsində çırpınan şair. Gözəllik və kədər... Ağ-qara cizgilərin yaratdığı təzadın bu fərqli yaşantıların gerçəkləşdirilməsində təsirli görüntüsü kifayət qədər duyulandır.

Füzuli dərdini dərindən duyan rəssam digər bir portretdə isə tünd yerliyin fonunda ağ libası şairi qara çıraqla üz-üzə, göz-gözə qoyaraq yenə “kölgə”yə dönmüş acı həsrəti onun həmdəmi etmişdir. Əsərdə rənglərin təzadı o qədər təsirlidir ki, onu yalnız gecənin lal sükutunu lərzəyə gətirən şimşək parıltısı ilə müqayisə etmək olar. Araşdırmalar göstərir ki, rəssam şairin bu iki portretini həm də yağlı boya ilə də işləmişdir. Onların lap ilkin variantlarına isə rəssamın gündəliklərində və ayrıca eskizlərində də rast gəlmək mümkündür. Bu da onun yaradıcılıq metodu üçün səciyyəvi haldır. Tuşla çəkilmiş rəsmlərin birində şairin

*Nə müşkül dərd olursa bulunur aləmdə dərmanı,*
*Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz!*

beyti obrazlı görkəm alıb... Şair məhəbbətə işıqlı yol arayır. Bu yol haralardan keçəcək, kimləri oyadacaq, kimə sevinc bəxş edəcək, kimini sinəsi dağlı, başıbəlalı edəcək? Özü də bilmir! Gecənin bu çağında sirdaşı şamlardır, bir də göylərdə sayrışan ulduzlardır...

*Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,*
*Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.*

misralarından ilham alan rəssam şairin ən müvəffəqiyyətli sayılan portretini yaratmağa nail olmuşdur. Əvvəlki portretlərdən fərqli olaraq burada rəssam şairin üzünü qara tuşun zəif çaları ilə yüngül tonda işləmiş, onun daxili yaşantılarını açmağa yönəldilmiş bu tonun üzərinə əlavə olunmuş cizgilərlə obrazın psixoloji durumunu bir qədər də zənginləşdirmişdir. Rəssam son nəticədə tamaşaçıya müdrik filosof Fizulini təqdim etməyə nail olmuşdur. İfadə vasitələrinin bənzərsizliyi, ekspressiya gücünün vüsət aldığı bu əsər Azərbaycan qrafika sənətinin ən qiymətli inciləri sırasına daxil olmağa layiqdir. Bu əsərdə də şam şairin həmdəmidir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, əksər əsərlərdə rast gəlinən, lakin görkəminə görə bir-birinə bənzəməyən bu şamlar rəssama öz fikrini tamaşaçıya çatdırmaqda çox kömək edir. Lövhələrdən hiss olunur ki, rəssam az detalla çox



**Məcnun**

söz deməyə çalışır və yığcam atributlarla belə, buna nail olur. Şam, qara çıraq, pərvanə və qürub edən günəş kompozisiyaların əsas elementləridir...

Səttar Bəhlulzadənin çəkdiyi bu qrafik rəsmlər "Leyli və Məcnun" poemasına illüstrasiyalar deyildir. Əsəri dərindən duyan, eləcə də şairin poetik irsinə bələd olan, onu yaradıcılıqla qavrayan rəssam zahiri təsvirçilikdən, adi illüstrasiyaçılıqdan qaçmışdır. O, buna sənətdə öz dünyagörüşünün olması ilə, yaradıcı ruhunun, ilhamının sətirlərə tabe edilməməsi ilə nail olub. Onun naturası belə idi, o, sanki ancaq yeni söz demək üçün yaranmışdı. Səttar Bəhlulzadəni mənzərə ustası kimi tanısaq da, rəssam Füzuli poeziyasına həsr etdiyi rəsmlərdə təbiət təsvirlərindən imtina edərək daha çox obrazların psixologiyasını açmağı üstün tutmuşdur. Obrazların iri planda təsviri də bu səbəbdən irəli gəlmişdir. Onların simalarındakı dəyişkən ovqat və plastik rəngarənglik də fərqli yaşantıların təqdimatına köklənən bədii-psixoloji xüsusiyyətlərdir.

Rəssamı Füzuli dünyasına cəlb edən bu poeziyanın ecazkar bir qüvvəyə, çoxqatlı fəlsəfi yükə malik olması, onun insanı həmişə izləyən, onunla həyatda qoşa addımlayan bəşəri duyğu və düşüncələri tərənnüm etməsidir. Rəssam şairin həyatını  və onun təzad dolu yaşantılarını onun şeirlərində diqqətlə izləyir, "Domokl qılıncı" kimi başının üzərindən asılmış kədərin səbəblərini də çox gözəl başa düşür. Elə bu dərin nüfuzun mövcudluğundandır ki, rəssamın Füzuli dühasına ünvanlanan düşündürücü və duyğulandırıcı əsərləri yaranmışdır. Onun sevdaya düşmüşlər və vüsal həsrətilə çırpınan aşiqlər kimi tuş gəldiyi bəlanın çarəsini şərabda axtarması rəssama "Ver mənə qəm dəfinə, saqi, şərab!" rəsmini yaratmağa imkan vermişdir...

Füzuli poeziyasında eşqi duyan, onu hər şeydən yüksək tutmağı bacaran ən kamil insanla – Məcnunla tanış oluruq. Rəssamın onu təsvir edən rəsmlərdə gah Leyli həsrətli, qolları zəncirli, çarəsiz eşqi ağrıya, naləyə, fəryada çevrilən Məcnunla, gah da şamla baş-başa verib gilə-gilə əriyən, kədəri özünə mənəvi qida sayan dahi və fədakar aşiqlə qarşılaşırıq. Yaranan təsirli əsərlərin qarşılığında inamla demək olar ki, Səttar Bəhlulzadə şairin duyğularını və Məcnunun yaşantılarını incəliklərinə kimi başa düşmüş, nəticədə eşqi özü üçün ən böyük nemət sayan poema qəhrəmanının çoxsaylı və dolğun obrazını yaratmağa nail olmuşdur. Eşq dərdini böyük səadət bilən aşiqin surəti rəssamın "Ey xoş ol günlər ki, mən həmraz idim canan ilə...", "Eşq dərdi, ey müalic, qabili-dərman deyil!" rəsmlərində əks olunmuşdur. Məcnunun iztirablarının kulminasiya nöqtəsini "Ya rəbb, bəlayi-eşq ilə qıl aşina məni" əsərində görürük... Məcnun şamla təsvir olunmuşdur. Bu dəfə rəssam şamı ön plana çəkərək Məcnunun çöhrəsini onun işığında təqdim etmiş,  onun gözlərində cəmlənən eşqi, sevgilisinin ayrılığından keçirdiyi hiss və həyəcanı inandırıcı cizgilərlə tamaşaçıya çatdıra bilmişdir. Təsviri gerçəkləşdirən cizgilərin kəskinliyi bu dahi aşiqdə misilsiz bir daxili-mənəvi müqavimət qüvvəsinin olduğuna işarədir. Rəssam Məcnun eşqinin həm də geniş fəlsəfi məna daşıdığını gözəl başa düşür və bunu özündə poeziya ilə təsviri qoşalaşdıran rəmzi-obrazlı görüntülərlə ifadə etməyə çalışır və istəyinə nail olur. Səttar Bəhlulzadə bu əsərlərində temperamentli xətlərə üstünlük verir, qara tuşun müxtəlif çalarının vəhdəti ilə kompozisiyaların monoxromluğuna baxmayaraq, qrafik lövhələrin çalar zənginliyi ilə rəngarəngliyini əldə edir.

Rəssam bəzi əsərlərində  zahirən statik və donuq görünə biləcək fiqur və atributlara daxili dinamizm bəxş etməklə onları duyğulandırıcı etməyə nail olmuşdur.



**S.Bəhlulzadə**

Onun “Məcnun müqəddəs Kəbədə” rəsmi bu baxımdan diqqət çəkir. O, Məcnunu Kəbənin içərisində – Qara daşın yanında təsvir etmişdir. Əvvəlki rəsmlərdəki Məcnundan çox fərqlənən bu təsvirdə heyrət, eyni zamanda ümidsizlik duyulur. Qara daşın qarşısında “daşlaşan” dahi aşiqin surəti elə bir yüksək sənətkarlıqla görüntüyə çevrilmişdir ki, bu cür istedadlı təsviri və tərənnümü qətiyyətlə milli qrafika sənətimizin böyük uğuru saymaq olar.

Rəssam hadisələrin inkişafının ağırlığını bir obrazın üzərində cəmləşdirməyi sevir. Bu ona təsvir olunan və özündə həm də zəngin fəlsəfi yük daşıyıcısı olan obrazlara mürəkkəb, yüksək dinamizmi hifz edən əlamətlər, yaşantı daşıyıcısı olan cizgilər verməyə imkan yaradır. Onun üçün konkret qəzəl, beyt çərçivəsində olmadığından onun Füzuli ünvanlı əsərlərində ifadə olunan hiss və duyğuları daha da gücləndirəcək bədii əlavələrə, cizgi improvizələrinə də rast gəlirik.

*Əskik olmaz ğəmimiz bunca ki, bizdən ğəm alıb,*
*Hər gələn ğəmli gedər, şad gəlib yanimizə!*

- deyən Məcnunun səhrada şamla söhbətini əks etdirən rəsm bunun təsdiqidir... Qürub edən günəş, şamdan bir an belə ayrılmayan pərvanələr Məcnunun insanlardan ayrı düşüb, ancaq Leylinin surəti ilə yaşadığı günləri əks etdirir. Rəssam təfsirində buradakı bütün görüntülər “öz həyatlarını” yaşayırlar. Lakin rəssamın başlıca niyyəti bu yaşantıları motivin fəlsəfi yükünün açımına, özünün başlıca ideyasına – Məcnunun kədərinə acımağa yönəltməkdir. Odur ki, əsərdəki qüruba enib istisi azalan günəş də, həyatının mənasını şam ətrafına dolanmaqda tapan pərvanələr də əslində kədərli durumda olduqlarından dahi aşiqə həmdəm kimi qəbul olunurlar. Ümumiyyətlə, Səttar Bəhlulzadə Füzuli dünyasına həsr etdiyi əsərlərdə bu iki elementi duyulası dərəcədə mənalandıra bildiyindən onlar hər bir kompozisiyanın ayrılmaz atributu kimi qəbul olmaqla tamaşaçını hər dəfə kifayət qədər duyğulandıra bilirlər.

Zaman-zaman poemanın əsas qəhrəmanlarından sayılan Leyli surətinə müraciət edən rəssam bu obrazın daşıdığı psixoloji-fəlsəfi yükü rənglərin müxtəlifliyi ilə əks etdirməyə çalışmışdır. Qırmızı, göy, ağ, qara rənglər Leylinin əhvali-ruhiyyəsinin ifadə etməklə, onun sevib-sevildiyi günlərin, sevgilisinin həsrəti ilə yanan qəlbinin çırpıntılarının, keçirdiyi qəm-qüssəli çağların obrazlı hekayətidir...

Rəssamın bu nakam məhəbbət dastanının sonluğuna “bədii güzgü” tutan bir rəsmdə Məcnun sevgilisinin məzarı önündə yanar şamla təsvir olunub. Əsərdə obraz özünün ifadəli hərəkəti ilə diqqət çəkir. Obrazdan fərqli



**Füzuli düşünür**




**Füzuli**

olaraq ətraf mühitin ekspressiv cizgilərlə həlli əsərə dramatik gərginlik gətirmiş, onsuz da cərəyan edən kədər dolu yaşantıları bir az da artırmışdır. Məcnunun əlindəki yanan şamın əriyərək ovcundan daşıb yerə tökülməsi ağrılar gətirsə də, Məcnun bu ağrıdan sanki daha da rahat olur. Bu əzab onun üzündə hiss olunmur. Şamın üzərinə axıb tökülən göz yaşları onun şöləsini daha da gücləndirir, elə bil ki, üfüqdə bu saat yox olacaq qürub edən günəşi əvəz edəcəkdir. Məcnunun qəm-qüssəsi, öz məhəbbəti uğrunda apardığı mübarizənin uğursuz sonu əsərdə öz təsirli əksini tapmışdır. Təsvir əfsanəyə



**Füzuli şamla**

dönmüş məhəbbətlə Füzuli poeziyası arasında obrazlı körpüyə dönüb, desək, yanılmarıq...

Rənglərin təzadında təqdim olunan “Füzuli ilə Məcnunun görüşü” əsəri nakam məhəbbət dastanının başlıca fəlsəfi qayəsini açıqlamağa xidmət edir. Rəssam ölçüyəsığmaz ağrılara qatlaşan bu iki həmdəmi qarşılaşdırmaqla bu sevginin uğursuz sonluğuna hələ də inanmadığını göstərmək istəyib. Məlum faciəli sonluq onu da için-için ağladır. Sualına məhz şairin özündən cavab istəyir... Rəssam Məcnunu söz-söhbət, tənə burulğanından xəyalən bir anlığa çıxarıb şairlə qarşılaşdırmışdır. Hiss olunur ki, Məcnunun qəfil gəlişi şairi çıxılmaz vəziyyətə salmışdır və əlləri ilə üzünü örtməyə güclə imkan tapmışdır. Məcnunsa öz “yaradıcısını” nə günahlandırır, nə də ondan imdad diləyir. Əksinə, ona sığınıb halına yanır, onu ovutmağa çalışır. Məhəbbətinin uğursuzluğunun səbəbini səmasını fanatizm bürümüş mühitdə görür. Amma o, hələ də bilmir ki, bu yalnız zahiri görüntüdür və heç şairin özü də nəyisə dəyişməyə qadir deyil. Belə ki, onun sevimli qəhrəmanının qəlbində ilahi eşqin ünvanı səhv düşüb, insana yönəlib və buna görə də onun ölçüyəgəlməz eşqinə çarə yoxdur, bunu şair istəsə də...Şairlə dahi aşiqin bu qarşılaşması həqiqətin və əxlaqın yeni pilləsinin, çoxlarına məlum olmayan dərki idi. Bu dərkdə şair müdrikliyi, aşiq iradəsi, sevgiyə yetişmək duyğusu birləşmişdi. Bu əsər nakam məhəbbət haqqında kədərli həqiqət dastanıdır. Onu rəssam gözü ilə dərk etdikcə insan zəkası idrakın yeni üfüqlərinə yüksəlir, gözü qarşısında gerçəkləşən yaradıcı və yaranın təzadlı yaşantıları heyrət mücəssəməsinə çevrilir. Son nəticədə, həm də şair-aşiq kədərinin müdrikliyini, ifadə ucalığını təsdiqləyir...

*Pənbeyi-daği cünun içrə nihandır bədənim,*
*Diri olduqca libasım budur, ölsəm kəfənim.*

Ulu misralar, əbədi hisslər. Eşq yolunda hər cür əzablara qatlaşan aşiqin çəkdiyi cəfalara bu cür obrazlı görkəm vermək, bu cür əyaniləşdirmək ancaq Füzuli kimi böyük söz ustadına nəsib olub. Dahiyanə rəssam duyumundan xəbər verən bu sirli-soraqlı ifadələrin müəllifinin söz düzümünün özü də zaman-zaman sənətkar marağına tuş gəlib. Buna səbəb şair təsvirində insan zəkasının nuru qəlbin hərarətli meyilləri ilə birləşərək idrakın sönüklüyü sayəsində yaradılmış cəhalət qaranlıqlarını ildırım işığı kimi əridib yoxa çıxarmışdır. Beləcə, haqqında söz açdığımız əsərlər meydana gəlmişdir.

Bütünlükdə isə əksər mənzərələrində olduğu kimi, Füzuli mövzusunu gerçəkləşdirən qrafik görüntülər, başqa sözlə desək, bədii obrazlar Səttar təfsirində qədim miniatürlərimizdə olduğu kimi fəlsəfi – illüstrativ



**Leyli və Məcnun**



**Məcnun Leylinin qəbri üstündə**

mahiyyəti ilə yanaşı, həm də çoxqatlı məna-məzmun daşıyıcısı olan semiotikadır-işarədir. Bu semiotikliyin mahiyyətinin dərki də çox vaxt tamaşaçı intellektinin necəliyindən keçir. Əslində işarə və obraz fəlsəfi, eləcə də bədii tutumuna görə yaradıcı münasibətdən asılı olaraq təsvirdə görüntüyə gətirilənlərdən də fərqli ola bilər. Elə Səttarda da belədir, amma bu heç də müsəl-



**Məcnun Leylinin qəbri üstündə**

man incəsənətindəki işarə və obrazın fərdi mahiyyətini sona qədər göstərə bilməməsindən qaynaqlanan təsvirə qadağalardan yox, təsvirin işarə və obrazın konkret durumundan daha fərqli, onu düşündürücü –fəlsəfi görüntüyə çevirmək istəyindən şirələnir. Bu mənada Səttarın təqdim etdikləri də zahirlə batinin, görünənlərlə görünməyənlərin qarşıdurmasının, işarə və mahiyyətin



**Məcnun Kəbədə**

vəhdətindən yarananlardırlar...

Haqqında söz açdığımız bu əsərlər, eləcə də rəssamın muzeylərdə və çoxsaylı şəxsi kolleksiyalarda saxlanan Füzuli, "Leyli və Məcnun" ünvanlı yüzlərlə əsərləri göstərir ki, Məcnun məhəbbətinin yanğısına, Füzuli poeziyasının alovuna Səttar Bəhlulzadə özü də ayaq qoyub, əsl mənada yanıb-yaxılıb. Məcnunun halına yana-yana özü də sənətin Məcnununa dönüb. Əslində şerimizi məcnunlaşdıran Füzuliyə Səttarın fərqli münasibəti, sadəcə, mümkünsüzdü. Qeysin Leyliyə yönəli Məcnunluğu səhraya sığışmadığı kimi, Səttarın da Vətən ünvanlı sevgisi kətanlara, vərəqlərə sığışmırdı. Səttar özü də bilmədən Məcnunlaşdı, özünün bunu dilə gətirməsinə heç ehtiyac da yoxuydu. Onsuz da kənardan hər şey görünürdü. Səttar və Məcnun adlarının sənətsevərlər arasında sinonimə dönməsi də bunun təsdiqidir. Qeysi Məcnun eləyən nakam, əlçatmaz məhəbbəti, Səttarı sənətin Məcnununa çevirən isə rənglərə və doğma torpağa vurğunluğu oldu desək, həqiqəti ifadə etmiş olarıq. Əslində Füzulinin poeziyada yüksəldiyi ali məqama rəssamlıqda Səttar da yetişdi, biri sözü, digəri isə rəngləri qeyri-adi tərzdə mənalandırdı. Odur ki, bu söz və rəng zirvələrinin vəhdətindən yaranan əsərlər kifayət qədər duyğulandırıcı və düşündürücüdür...



**Məcnun**